## London 2012: maraqlı faktlar

Olimpiya oyunları tarixində London oyunlara üç dəfə ev sahibliyi edən yeganə şəhər oldu. Bundan əvvəl Olimpiya Oyunları 1908-ci və 1948-ci illərdə Londonda keçirilmişdi...

Təşkilatçılar Olimpiadanın təhlükəsizliyinə 900 milyon dollar vəsait xərclədilər...

Böyük Britaniyanın Milli Olimpiya Komitəsi London 2012 oyunlarının loqotipini hazırlayan «Wolff Olins» şirkətinə 600 min dollar ödədi.

London Olimpiya və Paralimpiya oyunları üçün 4700 medal hazırlanıb və bunlar Olimpiya oyunları tarixində ən ağır çəkiyə malik medallardır. Medalların hər birinin çəkisi 400 qramdır.

İdmançıların 97%-i üçün Olimpiada yarım saatdan az çəkdi.

Bu Olimpiadada ilk dəfə olaraq qadınlar bütün idman növlərində təmsil olundular.

London Olimpiya oyunlarında ən yaşlı idmançı yaponiyalı at idmançısı Hiroşi Hoketsu idi. Hələ mart ayında 71 yaşı tamam olmuş bu idmançı ilk dəfə Olimpiadada 1964-cü ildə iştirak etmişdi.

Çin Milli Olimpiya Komitəsi öz işçilərinə ət yeməyi qadağan etmişdi, çünki ətin tərkibində klenbuterol adlı maddə var ki, bu, komitə bu maddənin qəbul edilməsinə yasaq qoyub.

Olimpiada ərzində idmançılara maykasız qaçmaq qəti qadağan olunmuşdu və bu hərəkətə yol verən şəxs 20000 funt sterlinq cərimə müəyyən edilmişdi.

Olimpiya oyunlarının təşkilatçıları ekoloji təmizliyə həddindən çox fikir verirlər; oyunlar ərəfəsində London küçələrində 500000 yeni ağac əkilmiş, iştirakçılar yarışa gedərkən avtomobillərdən yox metrodan istifadə edilməsinə üstünlük verilmiş, tullantılar yenidən emala göndərilmişdir. Təbii həyatı qorumaq üçün Olimpiya parkına 500 quş və 150 yarasa yuvası yerləşdirilmişdi.

Olimpiadanı izləmək üçün Londona

6 000 000 turist gəlmişdi.